/ code academy




# UX/UI Dizayn

#GələcəkBurada www.code.edu.az






**Maximum Rangen**
**28 miles / 60 kilometers**

Juiced electric bikes have a riding range between 40-100 miles depending on a variety of factors including battery size, average speed, terrain, rider weight, and more. With a smaller 48V or 36V battery, typical range will only be 15-35 miles per charge. That's a considerable difference.

Add to basket



# UX/UI DİZAYN QLOBAL DÜNYADA

Texnologiyanın inkişafı ilə birlikdə artıq hər kəs çox vaxt və enerji sərf etmədən ən yüksək səviyyədə ondan yararlanmaq istəyir. Mobil tətbiq və ya veb sayt istifadəçilərinin məmnunluğuna gəldikdə isə bir çox brendlər tətbiqlərin İstifadəçi İnterfeysi (UI Design) və İstifadəçi Təcrübəsi Dizaynına (UX Design) müraciət edirlər. Müştərilərinin digital məhsullarını istifadəçilər üçün əlçatan etmək UX və UI dizaynerlərinin əsas işidir.

"Stanford Web" tərəfindən aparılan son araşdırmada istehlakçıların 75%-i brendin etibarlılığını veb sayt dizaynının keyfiyyətinə görə qiymətləndirdiklərini iddia etmişdir. "Qualtrics" tərəfindən aparılan sorğuda iştirak edən 1000 nəfərdən çox insanın 80%-i texnoloji məhsul və xidmət alarkən istifadəçi təcrübəsini üstun tutduqlarını bildirmişlər. Bu məqamlar isə artıq UX/UI Dizaynın günümüz üçün nə qədər əhəmiyyətli olduğunu göstərir.

**Qlobal statistika isə göstərir**

| UX/UI dizaynerlərin | UX/UI dizaynerlərin | növbəti 10 il ərzində dizaynerlərin sayı |
|---|---|---|
| **40.4%** qadın | **59.6%** kişi | **19%**-ə qədər artacaq |

/ code academy

# UX/UI DİZAYN CODE ACADEMY-DƏ

**Portfolionuza**
**4 LAYİHƏ işi**
**hazırlaya biləcəksiniz**

UX/UI Dizaynerin əsas vəzifəsi istifadəçini hər zaman prosesin mərkəzində saxlayaraq onun bizneslə təmas nöqtələrini dərindən araşdırmaq, qarşılaşdığı çətinlikləri anlamaq, tövsiyələrini dinləmək və nəticədə , təcrübəsini müxtəlif üsullarla asanlaşdırmaqdır. Akademik partnyorumuz olan **Interaction Design Foundation (IDF)** ilə 100-dən çox yeni qlobal tədrislərə çıxışın olacaqdır.

gross əmək haqqı
**15.600 ₼/il**
Junior UX/UI Designer

gross əmək haqqı
**36.000 ₼/il**
Middle UX/UI Designer

gross əmək haqqı
**54.000 ₼/il**
Senior UX/UI Designer

**Qeyd olunan əmək haqqıları tam ştat və remote iş imkanları nəzərə alınaraq hesablanıb.**

Bu məqamları nəzərə alaraq Code Academy-nin UX/UI Dizayn tədris proqramı qabaqcıl beynəlxalq təcrübələri nəzərə alaraq praktiki tapşırıqlar əsasında hazırlanmışdır. Tədris müddətində həm peşəkar instruktorlardan təhsil alacaq, nəhəng xarici şirkətlərin tətbiq etdiyi təcrübələrlə tanış olacaqsınız. Komanda şəklində interaktiv layihələr hazırlayaraq təqdimat bacarıqlarınızı inkişaf etdirəcək və portfolionuz üçün 4 layihə işi hazırlaya biləcəksiniz. Həmçinin yerli və xarici şirkətlərdən dəvət olunan mütəxəssislərin (Product Owner, Agile Coach, Front-End Developer) də bilik və təcrübələrindən faydalanacaqsınız.




**Ülviyyə Tağıyeva**
UX/UI Dizayn tələbəsinin
final layihəsi



# TƏDRİS PROQRAMI

## 1 İstifadəçi təcrübəsi

İstifadəçi təcrübəsi mahiyyəti, bu sahədə dizaynerə lazım olan bacarıqlar və alətlər öyrədilir. UX-in biznesə qatdığı dəyər, məhsul və xidmət dizaynı anlayışı, agile yanaşma, istifadəçi yönümlü dizayn və Dizayn Düşüncə (Design Thinking) yanaşmasının tətbiqi izah edilir.

## 2 Digital məhsul

Digital məhsul ideyasının fərziyyə üzərindən araşdırılır, məşhur mental modellər, empati quraraq istifadəçi kütləsi və müştəri yolu xəritəsi (Customer Journey Map) formalaşdırılır. Sorğu anketlərinin hazırlanması və anket görüşlərinin keçirilməsi izah olunur. Digital məhsulun informasiya arxitekturası, müştəri yolu (User Flow), kağız prototiplərin qurulması və yoxlanılması öyrədilir. UX portfolio hazırlanır.

## 3 İnterfeys

İnterfeysin mahiyyəti, istifadə məqsədləri, fərqli növləri, üstünlükləri qlobal nümunələr əsasında izah edilir. İnterfeyslərin keyfiyyətinin ölçülmə meyarları, moodboard və əsas trendlər, Figma alətinin əsas funskionallığı öyrədilir.

## 4 Dizaynın təməl bilikləri

Dizaynın təməl bilikləri, kompozisiya və Gestalt prinsipləri, modul şəbəkəsi və adaptiv dizaynın qurulma qaydaları tədris olunur. Veb tipoqrafika, rəng, kontrast və rəng trendləri geniş şəkildə öyrədilir. Wireframe və prototiplərin hazırlanma bacarıqları aşılanır.

## 5 İstifadəçi interfeysi prinsipləri

İstifadəçi interfeysi daxilində istifadə olunan elementlərin birləşərək səhifə halına gətirilməsi, dizayn prosesini rahatlaşdırmaq və sürətləndirmək üçün dizaynın sistemləşdirilməsi (UI Kit, Atomic Design, Design System), Figma üzərindən tipoqrafik stillər və komponentlərin qurulmasıizah olunur. Fiziki məhdudiyyəti olan insanlar üçün interfeyslərin hazırlanması qaydaları, Apple üçün "Human Interface Design" və "Material design" qurulma prinsipləri və "Figma" aləti üzərindən interaktiv prototiplərin hazırlanması və animasiyası öyrədilir.

## 6 Dizaynın növbəti mərhələlərə ötürülməsi

Hazırlanmış işin mühəndislərə düzgün qaydada ötürülməsi və növbəti addımların izlənilməsi vacibdir. Hazırlanan məhsul dizaynın funksionallıqlarını tam yerinə yetirə bilməsi və istifadəyə yararlı hala gətirilməsi üçün proqramçılarla mütəmadi əlaqə qurulmasının təlimi verilir.

## 7 İstifadəçi təcrübəsi metrikləri

İstifadəçi təcrübəsinə bağlı olan, izlənilməsi və ölçülməsi mütləq olan metriklər mövcuddur. Bunlardan "conversion" və "bounce rate" məhsulda istifadəçinin keçirdiyi vaxt, qarşılaşdığı texniki xətalar və digər metriklər tədris olunur.

## 8 Analitika və nəticələrin izlənilməsi

UX/UI dizaynerin analitika üzrə diqqət yetirməli olduğu məqamlar var. Google Analytics, Hotjar və digər istifadəçi hərəkətlərini izləməyə kömək edən, həmçinin auditoriyanı müəyyənləşdirməyə icazə verən alətlər mövcuddur. Bunlar vasitəsilə digital məhsul dizaynının gətirdiyi dəyərin izlənməsi öyrədilir.

# HANSI BACARIQLARA SAHİB OLACAQSAN?

## Problem həlletmə bacarığını formalaşdırmaq

UX dizaynerlər istifadəçilər üçün qüsursuz bir təcrübə yaratmağa çalışmalıdırlar. Problem həll etmə bacarıqları sayəsində dizayner olaraq mürəkkəb məsələləri həll edəcək, əsaslandırılmış qərarlar qəbul edəcək və istifadəçi rəyi əsasında doğru düzəlişləri edə biləcəksən.

## Wireframing və Prototipləşdirmə

Dizayn konsepsiyalarını vizuallaşdırmaq üçün low və high fidelity wireframelərini hazırlayacaq və interaktiv prototipləri yaradacaqsan.

## İşin düzgün təqdimatı və satılması

Layihələr hazırlandıqdan sonra növbəti mərhələdə onların həm sifarişçiyə, həm də istifadəçiyə düzgün formada təqdim edilməsi zamanı diqqət edilməsi vacib olan bütün məqamlar və nüansları öyrənəcəksən.

## Figma ilə interfeys dizaynı

Kompozisiya, tipoqrafiya, rəng nəzəriyyəsi və Gestalt prinsiplərini öyrənəcək və Figma ilə trendlərə uyğun istifadəçi interfeyslərini dizayn edəcəksən.

## Agile yanaşma və Design Thinking

İstifadəçi problemlərini tapacaq və innovativ həllər yaratmaq üçün təkrarlanan dizayn metodologiyalarını tətbiq edəcək, çevik və istifadəçi yönümlü dizayn proseslərini təmin etmək üçün design thinking yanaşmasını ortaya qoyacaqsan.

## Müştəri mərkəzli və empatiya bacarıqları

Veb və mobil dizaynları hazırlayarkən istifadəçinin ehtiyaclarını anlamağı, empati qurmağı və digital məhsulu müştəri mərkəzli etməyi öyrənəcəksən. Onların ağrı nöqtələrini və davranışlarını daha dərindən başa düşəcəksən.

## UI prinsiplər və hiylələr

Dizaynı hazırlayarkən tətbiq edilməsi vacib hesab edilən əsas UI prinsipləri, həmçinin, maraqlı dizayn hiylələrini öyrənə biləcəksən.

## Data və analitikaya əsaslanan dizayn

İstifadəçi davranışını izləmək üçün Google Analytics və Hotjar kimi alətlər ilə lazımi metrikəri izləyəcək,istifadəçinin keçirdiyi vaxt, qarşılaşdığı texniki xətalar kimi məqamları aşkarlayacaqsan.

# UX/UI DİZAYNA MARAĞI OLAN VƏ KARYERASINI BU SAHƏDƏ QURMAQ İSTƏYƏN HƏR KƏS İŞTİRAK EDƏ BİLƏR.

# ALO 103

**Səkinə Cəfərova**
UX/UI Dizayn
tələbəsinin final layihəsi



## MAKING DOCTOR APPOINTMENT WITHOUT LEAVING HOME

**HOME PAGE**



# CODE ACADEMY TƏLƏBƏSİ OLMAQ

Code Academy-də tədris alan hər bir tələbə sahə üzrə bilik və bacarıqlarını inkişaf etdirməklə yanaşı, eyni zamanda bu sahənin peşəkarları ilə bir mühitdə olmaq imkanı qazanacaq, 8000 nəfərdən çox tələbəsi olan Code Academy ailəsinin bir parçasına çevrilərək, yeni dünyanın mütəxəssisləri ilə davamlı ünsiyyətdə olacaq və Open Space ərazisindən şəxsi və peşəkar inkişafı üçün istifadə edə biləcəkdir.

**+8000**
**aktiv tələbə sayı**

**116**
**pedaqoji heyət**

**12 saat / 7 gün**
**"Open Space"-dən istifadə**



**Məzunlarımızın işlədiyi top şirkətlər**

PAŞA Bank, Kapital Bank, kontakt, Azercell, Google, HAVAS, GUAVAPAY, AZINTELECOM, Bolt, asan xidmət, bakcell, amazon.com, azericard, PAŞA Holding, endorphin

# TƏLƏBƏLƏRİMİZİN UĞUR HEKAYƏLƏRİ



**Səkinə İsmayılova**
UI/UX designer
**Paşa Bank**

Code Academy keyfiyyətli təhsili, stimulativ mühiti ilə yanaşı tələbələrinə geniş bağlantılar və inkişaf imkanları təqdim edir. Bu sayədə məzunlar karyerada uğura daha çox yaxınlaşır.



**Bəhruz Axundov**
UI/UX designer
**Guavapay Limited**

Code Academy-nin dizayn tədrisi möhtəşəm bir təcrübə idi və mənim yaradıcılığım üçün çoxsaylı dəyərli bacarıqlar əldə etməyimə və yeni dostlar tapmağa imkan yaratdı. Dizaynı öyrənmək istəyən hər kəsə məsləhət görürəm.



**Lamiyə Hüseynova-Rüstəmli**
UX specialist
**ABB**

İş sahəmi UX/UI dizayna dəyişmək qərarına gələndə tərəddüd etmədən Code Academy-ni seçdim və qərarımda yanılmadığımı elə ilk gündən hiss elədim. Tədris gözləntilərimi üstələdi, instruktorların yanaşması, motivasiyası isə qiymətsiz idi. Onlar dizaynı, həqiqətən, də sevdirə bildilər!



**Fatimə Əlizadə**
Məhsul Dizayneri
**ABB**

Code Academy karyera yolumda verdiyim ən doğru qərarlardan biridir. Peşəkar müəllimimdən əldə etdiyim bilik və təcrübələr bu yolda sürətli irəliləməyə və özümü daha da inkişaf etdirməyimə təkan verdi. Əlavə olaraq demək istərdim ki, səmimi mühit və xoş kollektiv sevdiyim nüanslardan idi.

PRODUCT PAGE




**Elçin Qocayev**
UX/UI Dizayn tələbəsinin final layihəsi

NEW BOOKS NEW BOOKS NEW BOOKS NEW BOOKS NEW

# Categories

Se









# Tədris proqramı cədvəli

| Həftəiçi: Bazar ertəsi - Cümə (5 gün) | |
|---|---|
| **Səhər:** 09:00 - 12:45 | 12 həftə |
| **Günorta:** 14:00 - 17:45 | 12 həftə |
| **Axşam:** 19:00 - 21:45 | 16 həftə |

| Həftəsonu: Şənbə, Bazar (2 gün) | |
|---|---|
| **Səhər:** 10:00 - 14:45 | 24 həftə |
| **Günorta:** 15:30 - 20:15 | 24 həftə |

* Tədris proqramı lab saatları daxil ümumilikdə 240 saat davam edir.

Növbəti tədris hədəfin: **Qrafik Dizayn və Vizual Kommunikasiyalar**

Növbəti tədris hədəfin: **Digital Marketing Professional**

COLUMNS 12 MARGIN 24 GUTTER 8










**Bəhruz Axundov**

UX/UI Dizayn
tələbəsinin final layihəsi

Nizami küç. 203B, AF Business House, 2-ci mərtəbə
+99412 310 0113 / +99450 444 2633
info@code.edu.az / www.code.edu.az